# Türkiyə Respublika Gününü qeyd edir

*Bu gün müasir Türkiyə tarixində Atatürk öndərliyi ilə türk xalqının qəhrəmanlığının şah əsəri olan Türkiyə Cümhuriyyətinin qurulduğunun elan edildiyi gündür.*

101 il bundan öncə 29 oktyabr 1923-cü ildə Ankarada 101 top atəşi ilə Cümhuriyyət elan edildi. Türkiyə Böyük Millət Məclisinin Anadolunun düşmən işğalından azad edilməsindən sonra Cümhuriyyəti elan etməsi türk tarixində yeni bir səhifə açdı. "Suverenlik qeyd-şərtsiz millətindir" deyimi öz yerini tutdu. 1919-cu il mayın 19-da Mustafa Kamal Atatürk Samsuna gedərkən alovlanan istiqlal məşəli türk millətinin böyük mübarizəsi sayəsində bir daha sönmədi.











Mustafa Kamal Atatürk ömrü boyu müdafiə etdiyi "azad, müstəqil və müasir millət" idealından heç vaxt vaz keçməyib. O, millətinə ən böyük mirası - dünyəvi Türkiyə Cümhuriyyətini qoyub getmişdir.

1925-ci ildən 29 oktyabr rəsmi olaraq Cümhuriyyət günü kimi qeyd olunur. Qazi Mustafa Kamal Atatürk Cümhuriyyətin 10-cu ildönümünün qeyd edildiyi 29 oktyabr 1933-cü ildə etdiyi yubiley nitqində bu müqəddəs günü "ən böyük bayram" olaraq adlandırmışdı.

Osmanlı imperatorluğunun Birinci Dünya müharibəsində məğlub olması və torpaqların qalib dövlətlər arasında yağmalanması keçən əsrin əvvəllərində ölkəni böyük ümidsizliyə boğmuşdu. Amma Qərbin heç gözləmədiyi bir halda ortaya Qazi Mustafa Kamal Atatürk kimi bir qəhrəman sərkərdə çıxdı və milli gücləri öz baş komandanlığında birləşdirərək Qurtuluş Savaşına başladı.

İstanbulun işğalı və parlamentin buraxılmasından sonra 23 aprel 1920-ci ildə Ankarada Böyük Millət Məclisi adı altında milli iradə toplandı. 1921-ci il yanvarın 20-də TBMM tərəfindən qəbul edilən Konstitusiya Təşkilat Qanunu suverenliyin millətə məxsus olduğu elan edildi. Milli suverenliyin təbii və tam şəkildə həyata keçirilməsini təmin edəcək idarəetmə forması Respublika idi. Böyük Millət Məclisi 1922-ci il noyabrın 1-də sultanlığı ləğv etdi və beləliklə, şəxsi suverenlik hüquqi baxımdan tarixə çevrildi. Sonra səkkiz aylıq danışıqların sonunda 1923-cü il iyulun 24-də Lozanna Sülh müqaviləsi imzalandı. Sülh əldə olundu və Türkiyənin sərhədləri çəkildi. Eyni zamanda Türkiyə ilə Qərb dövlətləri arasında siyasi, hüquqi və ictimai əlaqələr yenidən quruldu.

Təxminən üç ay sonra, 1923-cü il oktyabrın 13-də Türkiyə Böyük Millət Məclisinin qəbul etdiyi qanunla Ankara yeni dövlətin paytaxtı elan edildi. Beləliklə, Cümhuriyyətin elan edilməsi üçün daha bir addım atıldı. 29 oktyabr 1923-cü ildə Qazi Mustafa Kamal Atatürk və dostları Əsas Təşkilat Qanununda bəzi köklü dəyişiklikləri ehtiva edən bir qanun layihəsi təklif etdilər. Bu düzəlişlərin birində yazılıb ki, Türkiyə dövlətinin idarə forması Cümhuriyyət olmalıdır. Təklif müzakirə edilib və günün sonunda 158 millət vəkili yekdilliklə Türkiyənin idarə formasının Cümhuriyyət olduğunu qəbul edib. Həmin iclasda ilk Prezident seçkiləri də keçirilib və Qazi Mustafa Kamal Atatürk yeni Cümhuriyyətin ilk prezidenti seçilib.

Qazi Mustafa Kamal Atatürk onu prezident seçən TBMM-ə təşəkkür etdikdən sonra çıxış edərək deyib: "Millətimiz hökumətin yeni adı ilə öz keyfiyyətlərini və dəyərlərini sivilizasiya dünyasına daha asan göstərə biləcək. Türkiyə Cümhuriyyəti dünyada tutduğu yerə layiq olduğunu əsərləri ilə sübut edəcək. Türkiyə Cümhuriyyəti xoşbəxt, uğurlu və qalib olacaq".

6 əsr ərzində çoxmillətli türk-islam monarxiyası şəklində həyat sürən Türkiyə dövləti TBMM-in 29 oktyabr tarixli qərarı ilə həyatına Cümhuriyyət kimi davam etmişdir. Cümhuriyyətin elanından sonra ilk Prezident seçilən Mustafa Kamal Paşa, Türkiyənin Osmanlı imperiyasından yeni siyasi rejimə faktiki keçidini şərtləndirən genişmiqyaslı islahatların banisidir.

Atatürk Cümhuriyyəti elan edərkən bu fikirdə idi ki, demokratiyanın bütün qaydaları vaxtında həyata keçirilməlidir. Onun əsas məqsədi türk millətinin öz siyasi hüquqlarını istədiyi kimi istifadə etməsini və ölkədə plüralist demokratiyanın təsirli olmasını təmin etmək idi. Və o istəyinə nail oldu.

Bu gün Mustafa Kamal Atatürkün rəhbərliyi ilə qurulan Cümhuriyyətin dünyəvilik, müasirlik, müstəqillik və demokratiya dəyərlərini qorumaq və yaşatmaq üçün verilən sözlər yerinə yetirilir.

1925-ci ildən etibarən keçirilməyə başlayan Cümhuriyyət bayramı Türkiyənin bütün şəhərlərində, Şimali Kipr Türk Respublikasında (KKTC) və dünyanın bütün ölkələrindəki Türkiyə səfirliklərində qeyd edilir.

Cümhuriyyət Bayramı Türkiyənin hər yerində böyük coşqu ilə qeyd olunur. İstanbulda milyonlarla vətəndaşın qatıldığı bir çox konsertlər, tədbirlər və şoular keçirilir.

Dünyanın ən yaxşı pilotları arasında yer alan Türkiyə Hərbi Hava Qüvvələrinin F-16 nümayiş komandası "SOLOTÜRK" İstanbul Maltepe Sahil Parkından uçaraq havada rəngarəng şoular nümayiş etdirir.

Onu da qeyd edək ki, bu gün İstanbul Böyükşəhər Bələdiyyəsi daxilində "İstanbulkart" gediş haqqı inteqrasiyasına daxil olan avtobus, metro, tramvay və bərə kimi ictimai nəqliyyat vasitələri 24 saat ərzində pulsuz xidmət göstərir. Ümumiyyətlə, istanbulluların ictimai günlərdə, milli və dini bayramlarda ictimai nəqliyyatdan pulsuz istifadə edə bilməsi üçün İstanbul Böyükşəhər Bələdiyyəsinin qəbul etdiyi qərara əsasən bu təcrübə 2019-cu ildən bəri davam etdirilir. Bu gün, həmçinin metro xətlərində də limitsiz internet xidməti həyata keçirilir.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**